# A1

# A BÖLMƏSİ – MALİYYƏ HESABATLARININ HAZIRLANMASININ MƏZMUNU VƏ MƏQSƏDİ

## MALİYYƏ HESABATLARININ HAZIRLANMASI SƏBƏBLƏRİ VƏ MƏQSƏDLƏRİ

## Mövzuya ilkin baxış

Maliyyə hesabatı "kommersiya fəaliyyətinin dilidir". Gələcəyin idarəediciləri və iş adamları kimi siz, bu dildən səlis istifadə edə bilməli və "bacarıqlarınızı" mükəmməlləşdirməlisiniz.

Bu tədris vəsaiti sizin biliklərinizin əsasını təşkil edəcəkdir: Əgər bünövrə möhkəm olarsa, gələcəkdə "inşa edilən" hər bir şey daha dayanıqlı və uzunmüddətli olacaqdır. Bu tədris vəsaitindəki biliklərə yiyələndikdən sonra, siz maliyyə hesabatının əsasını təşkil edən prinsip və konsepsiyaları başa düşəcək, eləcə də debet və kreditlərlə əminliklə işləyə biləcəksiniz. Çox mühüm bir "döyüşdə" qalib gələrək siz öz karyeranıza "kommersiya fəaliyyətinin dilini" başa düşərək başlayacaqsınız.

Başlanğıc olaraq, biz, maliyyə hesabatlarının hazırlanmasının nə demək olduğunu, eləcə də, maliyyə hesabatlarının hazırlanmasının səbəb və məqsədlərini izah edəcəyik. Bu, maliyyə hesabatlarının nə üçün hazırlanmalı olduğunu başa düşməkdə sizə kömək edəcək və beləliklə, siz praktikada bu hesabatları hazırlamaq iqtidarında olacaqsınız.

**NƏLƏRİ ÖYRƏNƏCƏYİK**

a) Maliyyə hesabatlarının hazırlanması prosesini izah etmək – maliyyə məlumatlarının qeydiyyatı, təhlili və yekun icmalı

b) Kommersiya müəssisələrinin növlərini müəyyənləşdirmək və izah etmək – fərdi sahibkarlıq, ortaqlıq və məhdud məsuliyyətli cəmiyyət

c) Fərdi sahibkarlıq, ortaqlıq və məhdud məsuliyyətli cəmiyyət arasında olan qanuni fərqlilikləri müəyyənləşdirmək

ç) Fərdi sahibkarlıq, məhdud məsuliyyətli cəmiyyət və ya ortaqlıq kimi fəaliyyət göstərməyin üstünlükləri və çatışmazlıqlarını (müsbət və mənfi cəhətlərini) müəyyənləşdirmək

d) Maliyyə hesabatlarının hazırlanmasının təbiətini, prinsiplərini və əhatə dairəsini başa düşmək


MUHASIBAT.AZ

## Giriş

Con və Mariya kiçik ailə biznesi formasında gül satışı ilə məşğul olurlar. Onların hər ayın 1-ci günü gül satdıqları 3 əsas müştərisi və həmçinin, mütəmadi olaraq onların köşklərindən gül alan çoxlu sayda müştəriləri vardır. Həftədə 3 dəfə Con müxtəlif təchizatçılardan gül alır: o, gülləri adətən, topdan satış ticarətçiləri, fermerlər və qiymət əlverişli olduqda, hətta digər mağazalardan belə satın alır. Mariya gülləri fərdi müştərilərlə razılaşdırılan ən yaxşı qiymətə satır. Həmçinin, onlar həmişə evlərində təzə güllər saxlayırlar.

Con və Mariya ayda iki dəfə gəlib satış və alış hesab-fakturalarını qeydə alan və maliyyə orqanları üçün müvafiq hesabatlar hazırlayan mühasibin xidmətlərindən istifadə edirlər. Bu, Con və Mariyanın hazırkı fəaliyyəti üçün kifayət edir. Onlar müəssisəni necə işlətmək barədə məsləhət verə və ya onların fəaliyyətinin nə dərəcədə səmərəli olduğunu deyə biləcək mühasibə ehtiyac duymurlar. Sadəcə olaraq, hər günün sonunda kassada müəyyən rməbləğdə pul vəsaitinin olması onları qane edir.

Mühasib qeyd edir ki, ilkin sənədlərin (məsələn, satış və alış hesab-fakturaları və qəbzlərin) hamısı yerində olmadığından, ilin sonunda əldə mövcud olan sənədlərə əsasən, müəssisənin böyük həcmdə mənfəət əldə etdiyi görünür. Məsələn, 3 əsas müştəriyə satışların qeyd edilsə də, lakin digər fərdi müştərilər və təchizatçılarla həyata keçirilən alqı-satqı əməliyyatları maliyyə hesabatlarında qeyd olunmadığından kiçik biznes böyük həcmdə mənfəət əldə etmiş kimi görünür.

İlin sonunda Con və Mariya aşağıdakı faktlarla qarşılaşırlar:

- Güllərin qiyməti kəskin şəkildə artmışdır. Onlar, ötən il qazandıqları mənfəət qədər mənfəət əldə edə biləcəklərinə ümid edirlər. Buna baxmayaraq, onlar başa düşürlər ki, satış qiymətlərini təchizatçıların qaldırdıqları səviyyədə qaldıra bilməzlər, belə ki, bu, bir çox müştərilərin itirilməsinə səbəb olacaqdır. Daha yaxşı strategiya tələb olunur.
- Digər bir gül mağazası sahibi olan Mayk onların mağazasını satın almağı təklif edir. Lakin, o, müəssisənin fəaliyyətinin birinci ilində nə dərəcədə mənfəət gətirdiyini (əlverişli olduğunu) bilmək istəyir.

Con və Mariya, aşağıda sadalanan məsələlərlə bağlı düzgün qeydiyyat aparmadıqlarına görə, müəssisənin həqiqətdə nə dərəcədə mənfəət gətirdiyini müəyyənləşdirə bilməyəcəklərini başa düşürlər:

- Alışlar, qiymətlər, məbləğlər və s;
- Fərdi müştərilərə satışlar: müştərilərə çeklər təqdim olunmadığına görə, qiymətlər və məbləğlər barədə məlumatlar yoxdur;
- Solmuş güllərə görə yaranmış zərərlər;
- İl ərzində qazanılmış mənfəət;
- Con və Mariya öz fəaliyyətlərinə ayrıca kommersiya müəssisəsi kimi yanaşmırdılar. Belə ki, ailə üzvləri və dostlarına tez-tez gül hədiyyə edirdilər. (Beləliklə, güllərin satın alınması üzrə pul vəsaiti xərclənməsinə baxmayaraq, heç bir mənfəət əldə olunmurdu).

İlkin sənədlərin hamısı yerində olmadığına görə (məsələn, satış və alış hesab-fakturaları) bu məlumatları əldə etmək artıq mümkün deyildir. Con və Mariya müəssisəni saxlamalı (saxladıqları halda, mənfəət əldə etmək üçün hansı qiyməti təklif etməli olduqlarına), yoxsa onu Mayka satmalı olduqlarına (satmaq istədikləri halda, hansı qiymətə satmalı olduqlarına) qərar verə bilmirlər.


MUHASIBAT.AZ

© GTG

Tələb olunan məlumatlar olmadığına görə, onlar düşünülməmiş qərarlar verməli olurlar. Bu düşünülməmiş qərarlara görə, onlar gələcəkdə zərərlərlə qarşılaşa və müəssisəni satmaq, qazanc əldə etmək və hər hansı digər bir fəaliyyətlə məşğul olmaq kimi imkanları əldən çıxara bilərlər.

Yəqin ki, yuxarıda verilən nümunəyə əsasən, artıq siz uçot qeydləri aparmağın və maliyyə hesabatlarının hazırlanmasının əhəmiyyətini başa düşmüsünüz. Maliyyə hesabatlarının hazırlanması məntiqli biznes qərarları qəbul etməyə imkan verir. Biz, yalnız vergi orqanları qarşısında yaxşı görünmək üçün maliyyə hesabatları hazırlamırıq. Maliyyə hesabatları fəaliyyəti lazımi şəkildə davam etdirmək; müəssisə sahiblərinin tələblərinə cavab vermək və həmçinin, maliyyə hesabatından istifadə edən digər tərəflərin məlumat tələblərinin ödənilməsi üçün gərəklidirlər (məsələn, yuxarıdakı nümunədə potensial investor olan Mayk kimi şəxslər nəzərdə tutulur).

**1. Maliyyə hesabatlarının hazırnaması prosesini etmək – maliyyə məlumatlarının qeydiyyatı, təhlili və yekun icmalı**

**(Nələri öyrənəcəyik - a)**

Müəssisə fəaliyyətə başladıqdan sonra müxtəlif əməliyyatlar həyata keçirilir və müxtəlif hadisələr baş verir. Bütün əməliyyatlar üzrə müəyyən ilkin sənədlər mövcud olmalıdır (hesab-faktura və ya qəbzlər kimi – aşağıya baxın). Bu məlumatlar əsasında biz mühasibat kitablarında yazılışlar (qeydiyyat) aparır və daha sonra, bu məlumatları maliyyə hesabatlarında yekun şəkildə təqdim edirik.

Mühasib kommersiya fəaliyyəti ilə bağlı əməliyyatların qeydiyyatı və sonradan, bunların kənar istifadəçilərə (yəni müəssisədən kənar şəxs və qurumlara) hesabat şəklində təqdim olunması baxımdan müəyyən məsuliyyətlər daşıyır. Bu baxımından, maliyyə hesabatlarının hazırlanması prosesinə (və ya mühasibat uçotunun aparılması prosesinə) aşağıdakılar daxildir:

1. İl ərzində baş vermiş əməliyyatların müəyyənləşdirilməsi və qeydiyyatı
2. Onların təhlili və
3. Məlumatların yekun icmalı və maliyyə hesabatlarında təqdimatı



## Anlayış

Mühasibat uçotu - əməliyyatın mənbəsi, onun maliyyə hesabatlarında tanınması, işlənilməsi və yekun icmalı daxil olmaqla, maliyyə əməliyyatlarının qeyd edilməsi və təqdimatı prosesidir.

**1. Qeydiyyat**

İş adamının yaddaşının nə qədər yaxşı olmasından asılı olmayaraq, o, kommersiya fəaliyyəti ərzində baş vermiş hər bir əməliyyatı yadda saxlaya bilməz. Bu səbəbdən də, günbəgün baş verən əməliyyatların (məsələn, satışlar, alışlar, xərclər, verilmiş pul vəsaitləri, alınmış pul vəsaitləri və s.) qeydə alınması çox əhəmiyyətlidir.

Qeydiyyat deyildikdə, müəssisənin hər hansı bir vəziyyətində həmin müəssisə haqqında etibarlı məlumatların əldə olunması üçün əməliyyatların sözlər və rəqəmlər şəklində yazılması başa düşülür. Bu məlumatların yazıldığı kitablara ilkin qeydiyyat kitabları deyilir.

Əməliyyatlar mühasibat kitablarında aşağıdakı sənədlər əsasında qeyd edilir:

a) Hesab-fakturalar

b) Qəbzlər

c) Çeklər (vauçerlər)

ç) Bank hesabatları və s.



MUHASIBAT.AZ

## Nümunə

Leroy Madlen fərdi sahibkardır və Teybls Krafters MMC adlı şirkətin emalatxanasından aldığı stolların satışı ilə məşğuldur. O, fəaliyyətə 20X6-cı ilin yanvar ayında başlamış və həmin il ərzində aşağıdakı əməliyyatlar həyata keçirmişdir:

1. Leroy Madlen, kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün bank hesabına 50,000 $ məbləğində pul vəsaiti qoymuşdur.
2. Leroy Teybls Krafters MMC-dən hər biri 2,000 $ məbləğində olmaqla, 10 dəyirmi taxta masa satın almışdır.
3. İl ərzində Leroy masaların hamısını, hər birini 3,500 $ məbləğində pul vəsaiti müqabilində satmışdır.

**Tələb olunur:**

Yuxarıda göstərilən əməliyyatları hansı sənədlərin əsasında qeydə almaq lazımdır?

**Cavab**

1. Leroya təqdim olunan bank hesabatları (çıxarışlar) bankda müəssisənin hesabına pul vəsaitlərinin yatırıldığını təsdiq etməlidir.
2. Həyata keçirilmiş alışlar, Teybls Krafters MMC tərəfindən verilən alış hesab-fakturaları əsasında qeyd edilməlidir.
3. Həyata keçirilmiş satışlar, Leroy tərəfindən verilən hesab-fakturalara əsasən sənədləşdirilməlidir.

---

### 2. Təhlil

İlkin qeydiyyat kitablarında yazılan əməliyyatlar daha sonra təhlil edilir və mühasibat kitablarına (bunlara bəzən "ledcer" də deyilir) köçürülürlər. Mühasibat kitabları alışlar, pul vəsaitləri, xərclər və s. kateqoriyalar üzrə hesablardan təşkil olunmuşdur. Bu məqam növbəti bölmələrdə daha təfərrüatlı şəkildə izah olunmuşdur.

Hər bir əməliyyatın iki təsiri vardır, məsələn, sahibkar mal aldıqda iki növ əməliyyat baş verir:

- Birinci əməliyyat: malların alışı (çatdırılması, qəbul edilməsi)
- İkinci əməliyyat: pul vəsaitlərinin ödənişi

Hər bir əməliyyatın ikili təsiri olduğuna görə, əməliyyatın qeyd edilməsi iki mühasibat hesabına təsir etməlidir.

## Nümunə

Meri kitab mağazası sahibidir və o, aşağıdakı əməliyyatları həyata keçirmişdir:

1. Best Şirkətindən kitab satın almışdır.
2. Best Şirkətinə çek vermişdir.
3. Ceymsə pul vəsaiti ilə əməkhaqqı ödəmişdir.
4. Stefens Kollecinə kitab satmışdır.
5. Stefens Kollecindən pul vəsaiti almışdır.


MUHASIBAT.AZ

© GTG

**Tələb olunur:**

Yuxarıdakı əməliyyatların qeyd olunduğu mühasibat hesablarını sadalayın.

**Cavab**

1. Kitab alışları hesabı və Best Şirkəti ilə hesablaşma hesabı
2. Best Şirkəti (təchizatçı/istehsalçı) ilə hesablaşma hesabı və bank hesabı
3. Əməkhaqqı hesabı və pul vəsaitləri hesabı
4. Stefens Kolleci (müştəri) ilə hesablaşma hesabı və satışlar hesabı
5. Pul vəsaitləri hesabı və Stefens Kolleci (müştəri) ilə hesablaşma hesabı

---

## 3. Yekunlaşdırma (yekun icmal)

İl ərzində milyonlarla əməliyyat baş verə bilər. Bu əməliyyatlar müvafiq kateqoriyalara ayrıldıqdan sonra, dövrün sonunda müəssisənin maliyyə vəziyyətini və onun il ərzində fəaliyyətini başa düşmək üçün biz onları müəyyən struktur əsasında yekunlaşdırmalıyıq.

Maliyyə hesabatlarının hazırlanmasının son nəticəsi kommersiya fəaliyyəti üzrə maliyyə hesabatlarının ərsəyə gəlməsidir.

Dövr ərzində müəssisənin bütün əməliyyatlarını və baş vermiş bütün hadisələri özündə cəmləşdirən iki əsas maliyyə hesabatı aşağıdakılardır:

a) Mənfəət Haqqında Müfəssəl Hesabat (mənfəət və zərər haqqında hesabat)

b) Maliyyə Vəziyyəti Haqqında Hesabat

c) Mənfəət Haqqında Müfəssəl Hesabat (mənfəət və zərər haqqında hesabat) müəssisənin maliyyə fəaliyyəti haqqında hesabatdır və müəyyən dövr ərzində müəssisənin bütün gəlir və xərc maddələrini özündə əks etdirir. Mənfəət Haqqında Müfəssəl Hesabatın (mənfəət və zərər haqqında hesabatın) ən aşağı hissəsində dövr ərzində müəssisə tərəfindən əldə edilmiş mənfəət/zərər göstərilir.

Maliyyə vəziyyəti haqqında hesabat müəyyən bir zaman anında müəssisənin sahib olduğu hər şeyi (onun aktivləri, məsələn, əmlak, torpaq, tikili, avadanlıqlar, pul vəsaitləri və s.) və borclu olduğu hər şeyi (müəssisənin sahibləri və üçüncü tərəflər qarşısında öhdəlikləri; məsələn, təchizatçılar/qarşısında öhdəlikləri) əks etdirən maliyyə hesabatıdır.

**Diaqram 1: Bu baxımdan, maliyyə hesabatlarının hazırlanması aşağıdakılarla bağlı olan bir prosesdir:**




**Nəticə**

Mühasibat uçotu prosesi çərçivəsində, mühasiblər müəssisənin maliyyə əməliyyatlarını müəyyənləşdirir, qeyd edir və təhlil edirlər. Hər bir dövrün sonunda mühasiblər topladıqları məlumatlar əsasında maliyyə hesabatları hazırlayırlar (əsas maliyyə hesabatları maliyyə vəziyyəti haqqında hesabat və mənfəət haqqında müfəssəl hesabatdır (mənfəət və zərər haqqında hesabat). Maliyyə hesabatlarının hazırlanması maliyyə hesabatlarının tərtib edilməsi və təqdimatı prosesini özündə ehtiva edir.


MUHASIBAT.AZ

## İCMAL




**2. Kommersiya müəssisələrinin növlərini müəyyənləşdirmək və izah etmək – fərdi sahibkar, ortaqlıq və məhdud məsuliyyətli cəmiyyət**

**(Nələri öyrənəcəyik - b)**

"Müəssisə" anlayışı beynəlxalq səviyyədə istifadə olunan ümumi anlayışdır və aşağıdakıları əhatə edir:

1. **Fərdi sahibkarlıq:** Adətən, müəssisənin bir nəfər sahibi olur ki, bu şəxs də onu idarə edir – məsələn: bərbərxana, qaynaqçı, mühasib, vəkil, təlimçi və s.
2. **Ortaqlıq:** İki və ya daha çox insan birgə fəaliyyət göstərərək mənfəəti öz aralarında bölüşdürürlər. Məsələn: mühasiblər, həkimlər, vəkillər kimi peşəkar şəxslər birgə fəaliyyət göstərə bilərlər.



**Ortaqlıq** – "ümumi mənfəət məqsədi ilə birgə fəaliyyət göstərən insanlar arasında olan münasibətdir." Bu tərif Birləşmiş Krallığın 1890-cı ildə buraxılmış ortaqlıq haqqında aktından götürülmüşdür.

## Nümunə

Bleyk və Henri hər ikisi çörək bişirirlər. Bleyk Henriyə onunla birlikdə fəaliyyətə başlamaq təklifini irəli sürür.

Ortaq fəaliyyət göstərməklə onlar resurslarını bir araya toplaya, xərcləri və bütün riskləri bölüşdürə bilərlər. Ortaqlıq qurmaq onlara aşağıdakı üstünlükləri verəcəkdir:

- İki müxtəlif çörək mağazası yerinə, onlar bir mağaza üçün icarə haqqı verə bilərlər.
- Henri kekslər bişirə, Bleyk isə, öz növbəsində, müxtəlif çörək növləri hazırlaya bilər. Beləliklə, onlar daha çox gəlir əldə edə bilərlər.
- Həmçinin, onlar işçi qüvvəsini və müxtəlif avadanlıqları bölüşə bilərlər.

Bu halda, onlar arasında bağlanılan sövdələşmə ortaqlıq, Bleyk və Henri isə ortaqlar adlanırlar. Onlar əvvəlcədən müəyyənləşdirilmiş nisbət əsasında mənfəəti bölüşdürməli, həmçinin, meydana çıxan bütün riskləri birgə qarşılamalıdırlar. Məsələn, müəssisənin vəsaitləri hesabına ödənilə bilməyən borcları, onlar öz aralarında paylaşaraq ödəməlidirlər. Əksi barədə heç bir razılaşma bağlanmadığı təqdirdə, ortaqlar arasında mənfəətin bölüşdürülməsi üzrə nisbətin bərabər olduğu güman edilir (yəni 1:1-ə nisbətində).


MUHASIBAT.AZ

3. **Şirkətlər:** Şirkət – Birləşmiş Krallığın Şirkətlər haqqında Aktı əsasında(və yaxud hər bir ölkənin müvafiq qanunvericiliyi əsasında) qeydiyyatdan keçmiş kommersiya müəssisələridir. Şirkətin sahibləri şirkətdə pay (səhm) satın alırlar ki, buradan əldə olunmuş pul şirkətin fəaliyyətində istifadə olunur. Sahiblər səhmdarlar kimi tanınırlar.

Şirkətlər MMC (məhdud məsuliyyətli cəmiyyətlər) və ASC (açıq səhmdar cəmiyyət – Fond Birjasına daxil edilmiş – bu tipli şirkətlərin minlərlə səhmdarları ola bilər və onlar adətən, orta-böyük ölçülü şirkətlər olur) formasında olur (Tərcüməçinin qeydi: Bəzən də QSC (qapalı səhmdar cəmiyyəti) formasında da fəaliyyət göstərir)

## Nümunə

Bleyk və Henri hər ikisi çörək bişirirlər. Onlar un məmulatları satışı ilə məşğul olan şirkət açmaq qərarına gəlirlər. Rəsmi olaraq, "Beyker-iz Limited" adlanan şirkət açır və hər ikisi şirkətdə səhm alırlar. Onların hər biri şirkətdə 1,000 ədəd səhm satın almaq üçün 1,000 $ məbləğində pul vəsaiti ödəyir (beləliklə, hər bir səhmin nominal dəyəri 1 $ məbləğindədir). Beləliklə, şirkətin bank hesabında 2,000 $ məbləğində pul vəsaiti yaranır. Bu pullarla şirkət un məmulatları satışına başlamaq üçün tələb olunan hər şeyi ala bilər (məsələn, icarə haqqını ödəyə, işçi qüvvəsi tuta, un və avadanlıqlar satın ala bilər).

## Qısa test

1. Fərdi sahibkarlığın neçə sahibi olur?

(a) İki

(b) Bir

(c) Beş

(d) Qeyri-məhdud sayda

2. Məhdud məsuliyyətli cəmiyyətin sahibləri kimlərdir?

(a) Direktorlar

(b) Ortaqlar

(c) Səhmdarlar

(d) İdarəedicilər

---

**İCMAL**





MUHASIBAT.AZ

**3.Fərdi sahibkarlıq, ortaqlıq və məhdud məsuliyyətli cəmiyyət arasında olan qanuni fərqlilikləri müəyyənləşdirmək**

**(Nələri öyrənəcəyik - c)**

Müəssisələrin (hüquqi şəxslər) yuxarıda göstərilən 3 növünü aşağıdakı 4 cəhətdən bir-biri ilə müqayisə edək.

**1. Kapital yığımı**

Fərdi sahibkarlıqlar və ortaqlıqlar əsasən müəssisənin sahibləri tərəfindən müəyyənləşdirilir və kapital əldə olunmasının digər mənbələri (fəaliyyətin genişləndirilməsi üçün borc öhdəlikləri və digər maliyyə vəsaitləri əldə etmək) üzrə məhdud imkanlara sahib olurlar. Ortaqlıqlar fərdi sahibkarlara nisbətən maliyyə mənbələrinə daha çox çıxış əldə edərək, öz resurslarını cəlb edə bilərlər.

Şirkətlərin çoxlu sayda səhmdarları olduğuna görə onlar daha çox maliyyələşmə imkanları qazanırlar.

**2. Səlahiyyət**

Fərdi sahibkarlıqlar və ortaqlıqlar, adətən, bu müəssisələrin sahibləri tərəfindən idarə olunurlar. Bəzən sahiblər özlərindən başqa şəxsləri də işə götürürlər, lakin nəticə etibarilə, onlar müəssisə üzərində tam məsuliyyəti və sahiblik hüququnu özlərində saxlayırlar.

Sahiblər digər işçiləri işə götürdükləri halda onlara əməkhaqqı verirlər ( bu MHMH-də (mənfəət və zərər haqqında hesabatda) xərc maddəsi kimi göstərilir). Fərdi sahibkar / ortağın qazancı sahibkar tərəfindən dövriyyədən çıxarılan pul vəsaitləri (pul çıxarmaları) adlandırılır. Bu, maliyyə vəziyyəti haqqında hesabatda göstərilir. Bu tədris vəsaitinin daha sonrakı fəsillərində bunlarla daha yaxından tanış olacaqsınız.

Şirkətlərdə isə şirkət sahibləri (səhmdarlar), adətən, müəssisəni özləri idarə etmirlər. Onlar Direktorlar Şurasını təyin edirlər ki, Direktorlar Şurası da, öz növbəsində, müəssisəni idarə edən insanları təyin edir.

Səhmdar / sahibkar olmaq üçün hər hansı bir şəxs şirkətin səhmini satın almalıdır. Şirkət korporativ və ya ayrıca hüquqi statusa malik olur; məsələn, sahibkarın / səhmdarın vəfat etdiyi və səhmlərini satdığı hallarda şirkət yenə də fəaliyyət göstərməyə davam edir. İdarəedicilər səhmdarların adından şirkəti idarə edən və bu istiqamətdə göstərdikləri xidmətlərə görə zəhmət haqqı alan peşəkarlardır. Maliyyə hesabatlarını təhlil etməklə şirkət sahibləri onların var-dövlətlərinin nə dərəcədə artdığını və resurslarının təhlükəsizliyinin idarəedicilər tərəfindən nə dərəcədə təmin olunduğunu yoxlayırlar.

Səhmdarların qazancı divident şəklində təmin edilir – hər bir səhmdar şirkətin qazandığı mənfəət üzrə ödənilən müəyyən məbləğdə pul vəsaitləri alır. Həmçinin, səhmdarlar səhmlərini satmaqla gəlir qazana bilərlər.

**3. Məsuliyyət**

Fərdi sahibkarlar və ortaqlar qeyri-məhdud məsuliyyət daşıyırlar (məsələn, müəssisənin likvidasiyası (bağlanması) halında, onlar şəxsi aktivləri ilə müəssisənin öhdəlikləri üzrə məsuliyyət daşıyırlar). Müəssisə iflasa uğrayarsa, müəssisənin üçüncü tərəflərə borclu olduğu məbləğləri ödəmək üçün onlar öz şəxsi əmlaklarını satmalı ola bilərlər. Qanunvericilik çərçivəsində fərdi sahibkarlıqlar və ortaqlıqlar öz sahibləri ilə eyni şəxs kimi qəbul edilirlər. Məsələn, fərdi sahibkar vəfat edərsə, müəssisə bağlanır.

Məhdud məsuliyyətli cəmiyyətlərin səhmdarları məhdud məsuliyyət daşıyır. Məsələn, şirkətin iflasa uğraması halında, onlar yalnız təqdim etdikləri kapitalı (şirkətin səhmlərini almaq üçün ödədikləri məbləği) itirə bilərlər və şirkətin öhdəlikləri üzrə öz şəxsi aktivləri ilə məsuliyyət daşımırlar. Yalnız səhmlərin nominal dəyərinin müəyyən hissənin hələ ödənilməməsi halında, bu məbləğ səhmdarlardan tələb oluna bilər.



MUHASIBAT.AZ

**Qeyri-məhdud məsuliyyət fərdi sahibkarlıqlar və ortaqlıqlarla şirkətlər arasında olan əsas fərqlərdən biridir. Yadda saxlayın ki, şirkətlər məhdud məsuliyyət daşıyır.**

### 4. Digər hüquqi tələblər

Fərdi ticarət sahibkarlıqlar və ortaqlıqlar, adətən, maliyyə hesabatları dərc etdirməyə məcbur deyillər. Həmçinin, onların maliyyə hesabatlarının auditinin həyata keçirilməsi tələb olunmur.

Buna baxmayaraq, kommersiya müəssisələrinin hüquqi strukturu və hüquqi tələblər (maliyyə hesabatlarının auditinin həyata keçirilməsi öhdəliyi) ölkədən-ölkəyə dəyişə bilər. Məsələn: ortaqlıqların mənfəəti müəyyən limiti aşdığı halda, onların maliyyə hesabatlarının audit edilməsi tələb oluna bilər.



## Qısa test

3. Fərdi sahibkarın iflasa uğradığı hallarda, müəssisə sahibinin şəxsi əmlakı borcların ödənilməsi üçün istifadə oluna bilərmi?

(a) Xeyr

(b) Bəli

(c) Məsuliyyət səhmlərin nominal dəyəri ilə məhdudlaşır

(d) Məsuliyyət müəssisənin mənfəəti ilə məhdudlaşır

4. Ortaqlığın iflasa uğradığı hallarda, müəssisə sahiblərinin şəxsi əmlakı borcların ödənilməsi üçün istifadə oluna bilərmi?

(a) Xeyr

(b) Bəli

(c) Məsuliyyət səhmlərin nominal dəyəri ilə məhdudlaşır

(d) Məsuliyyət müəssisənin mənfəəti ilə məhdudlaşır

5. Hansı növ müəssisələr maliyyə hesabatları dərc etdirmək öhdəliyi daşıyır?

(a) Məhdud məsuliyyətli cəmiyyətlər

(b) Fərdi sahibkarlar

(c) Ortaqlıqlar

(d) Heç biri

---

### İCMAL





MUHASIBAT.AZ

**4. Fərdi sahibkarlıq, məhdud məsuliyyətli cəmiyyət və ya ortaqlıq kimi fəaliyyət göstərməyin üstünlükləri və çatışmazlıqlarını (müsbət və mənfi cəhətlərini) müəyyənləşdirmək.**

**(Nələri öyrənəcəyik - ç)**

### 4.1 Fərdi sahibkarlıq müəssisəsi

**Üstünlüklər**

1. Mənfəət bölüşdürülmür: Müəssisənin yalnız bir sahibi vardır. Bütün mənfəət müəssisənin sahibinə çatır.
2. Heç bir narazılıq və ya mübahisə halları baş vermir: Heç bir fikir ayrılıqlarından söhbət getmir, belə ki, bütün qərarlar bir şəxs tərəfindən qəbul edilir.
3. Az sayda rəsmi formallıqlar: Adətən, fərdi sahibkar kimi fəaliyyət göstərməyə başlamaq üçün bir neçə rəsmi formallıqların yerinə yetirilməsi tələb olunur.
4. Sadə mühasibat uçotu prosedurları.

**Çatışmazlıqlar**

1. Bütün kommersiya riskləri bir şəxsin öhdəsində qalır.
2. Öhdəliklərin həvalə edilməsi mümkün deyildir: Yalnız bir şəxs müəssisənin sahibi olur, idarəetmə və nəzarət öhdəliklərini öz üzərinə götürür.
3. Aşağı inkişaf dərəcəsi: Fərdi sahibkarlıqlara cəlb edilmiş resurslar məhduddur və digər müəssisə növləri ilə müqayisədə inkişaf səviyyəsi də müvafiq olaraq aşağıdır.
4. Qeyri-məhdud məsuliyyət: İflas halında, müəssisənin borc öhdəliklərinin və ya digər borclarının ödənilməsi üçün, sahibkarın şəxsi aktivləri götürülə bilər. Məsələn, ticarət üzrə kreditor borclarının ödənilməsi üçün fərdi sahibkar öz evini, maşınını, şəxsi zinət əşyalarını satmalı ola bilər.

### 4.2 Ortaqlıqlar

**Üstünlüklər**

1. Kommersiya risklərinin bölüşdürülməsi: Fərdi sahibkar bütün kommersiya risklərinə qarşı özü cavabdeh olmalıdır, lakin ortaqlıqlarda kommersiya riskləri ortaqlar arasında bölüşdürülür.
2. Bacarıqlar və təcrübə: Ortaqlardan yalnız kapital yatırmaları deyil, həmçinin, ümumi işə öz bacarıqlarını və təcrübələrini cəlb etmələri tələb olunur.
3. Kommersiya fəaliyyətində inkişaf: Bütün öhdəliklər fərdi sahibkara nisbətən daha geniş bacarıqlara sahib olan ortaqlar arasında bölüşdürülə bilər.
4. Daha böyük həcmdə investisiya imkanları: Müəssisəyə yatırılan investisiyalar, fərdi sahibkarlıqlara nisbətən daha böyük həcmdə olur. Bu, fəaliyyətin genişləndirilməsi üçün daha böyük imkanlar yaradır.
5. Daha az rəsmi formallıqlar: Məhdud məsuliyyətli cəmiyyətlərə nisbətən ortaqlıqlarda daha az rəsmi formallıqların yerinə yetirilməsi tələb olunur.


MUHASIBAT.AZ

**Çatışmazlıqlar**

1. Mənfəətin bölüşdürülməsi: Müəssisə tərəfindən qazanılmış mənfəət ortaqlar arasında bölüşdürülür. Bəzi ortaqların digərlərinə nisbətən daha səylə çalışdıqlarını nəzərə alsaq, burada ədalətli nisbətin müəyyənləşdirilməsi müəyyən çətinliklər törədə bilər.
2. Müəyyən narazılıqların və ya mübahisələrin baş verməsi ehtimalı: Müəssisənin fəaliyyəti ilə bağlı məsələlərin həll edilməsi zamanı, bütün ortaqlar arasında razılaşma əldə edilməsi tələb olunur. Lakin bəzən bu mümkün olmur və nəticədə bəzi problemlər meydana çıxır.
3. Ortaqların qeyri-məhdud məsuliyyəti: İflas halında müəssisənin borc öhdəliklərinin və ya digər borclarının ödənilməsi üçün, ortaqların şəxsi aktivlərindən istifadə oluna bilər.

### 4.3 Məhdud Məsuliyyətli Cəmiyyət

**Üstünlüklər**

1. Daha böyük həcmdə kapital: Sahibkarların sayı barədə hər hansı bir məhdudiyyət mövcud olmadığı üçün, daha böyük həcmdə kapitalın cəlb edilməsi mümkündür. Bu, müəssisənin fəaliyyətinin daha da genişlənməsinə imkan yaradır.
2. Daha yaxşı idarəetmə: Müəssisənin sahibləri onun idarəedicilərindən ayrıldıqları üçün, müəssisənin fəaliyyətinin idarəedilməsi məqsədilə peşəkar idarəedicilərin xidmətlərindən istifadə edilir. Məsələn, maliyyə işlərinin idarə edilməsi üçün, sertifikatlaşdırılmış mühasiblər kimi maliyyə sahəsində peşəkar olan şəxslər işə götürülə bilər.
3. Məhdud məsuliyyət: Şirkətin hər bir üzvünün məsuliyyəti, yalnız, onun aldığı səhmlərin nominal dəyəri ilə məhdudlaşır. Səhmlərin nominal dəyəri dedikdə, səhmlərin üzərində çap edilmiş məbləğ nəzərdə tutulur. Müəssisənin iflasa uğraması halında, şirkətin səhmdarları müəssisənin borclarının ödənilməsi üçün öz şəxsi aktivlərini qurban verməli deyillər.
4. Səhmlərin ötürülməsi: Səhmlər bir şəxsdən digər şəxsə asanlıqla ötürülə bilər. Bu, investorlara likvidlik imkanları verir.

**Çatışmazlıqlar**

1. Daha çox rəsmi məhdudiyyət: Müəssisə məhdud məsuliyyət üstünlüyündən faydalandığına görə, qanunvericiliyə əsasən belə müəssisələrə bir çox məhdudiyyətlər tətbiq edilir. Məsələn, kompyuter satışı ilə məşğul olan şirkət, şirkətin memorandumunda (nizamnaməsində) qeyd olunmadığı təqdirdə kompyuterdən başqa heç nə sata bilməz.
2. İkili vergi: Müəssisə tərəfindən qazanılan mənfəətə vergi tətbiq olunur. Lakin bəzi ölkələrdə müəssisə tərəfindən qazanılan və artıq müvafiq vergisi ödənilmiş mənfəətin səhmdarlar arasında divident şəklində bölüşdürülməsinə də yenidən vergi qoyulur. Bu vergi səhmdarlar tərəfindən aldıqları dividentlər üzrə ödənilir.
3. Fırıldaqçılıq: Gündəlik idarəetmə işlərinin sahibkarlar tərəfindən aparılmamasına görə, sahibkarlardan xəbərsiz müəssisədə müəyyən fırıldaqçılıq cəhdlərinin baş verməsi ehtimalı mümkündür.


MUHASIBAT.AZ

**Diaqram 2: Kommersiya müəssisələrinin üstünlükləri və çatışmazlıqları**

| | ***Müəssisə növləri*** | | |
|---|---|---|---|
| | **Fərdi sahibkarlıq** | **Ortaqlıq** | **Şirkət** |
| ***Üstünlüklər*** | Mənfəətin bölüşdürülməməsi | Kommersiya risklərinin bölüşdürülməsi | Məhdud məsuliyyət |
| | Heç bir narazılıqların və ya mübahisə hallarının baş verməməsi | Daha böyük həcmdə investisiya imkanları | Səhmlərin asanlıqla ötürülə bilməsi |
| | Sadə mühasibat uçotu prosedurları | Bacarıqlar və təcrübə | Daha böyük həcmdə kapital |
| | | | Daha yaxşı idarəetmə |
| ***Çatışmazlıqlar*** | Bütün risklər bir şəxsin öhdəsinə düşür | Mənfəətin bölüşdürülməsi | Daha çox rəsmi məhdudiyyət |
| | Qeyri-məhdud məsuliyyət | Qeyri-məhdud məsuliyyət | İkili vergi |
| | Öhdəliklərin həvalə edilməsi mümkün deyil | Müəyyən narazılıqların və mübahisələrin baş verməsi ehtimalı | Fırıldaqçılıq imkanları |



## Qısa test

6. Şirkətin iflasa uğradığı hallarda, səhmdarların şəxsi əmlaklarından müəssisənin borclarının ödənilməsi üçün istifadə oluna bilərmi?

(a) Xeyr

(b) Bəli

(c) Məsuliyyət səhmlərin nominal dəyəri ilə məhdudlaşır

(d) Məsuliyyət müəssisənin mənfəəti ilə məhdudlaşır

7. Şirkətin sahibkarı tərəfindən şirkətə investisiya edilən məbləğ necə adlandırılır?

(a) Səhmdarın kapitalı

(b) Səhm kapitalı

(c) Fondlar

(d) Heç biri

8. Şirkətin səhm kapitalı nədir?

(a) Səhmdarlar tərəfindən verilən borc öhdəlikləri

(b) Səhmdarlar tərəfindən direktorlara verilən hədiyyələr

(c) Səhmlərin bazar dəyəri

(d) Səhmdarlar tərəfindən şirkətə pul vəsaiti və ya digər vasitələr şəklində investisiya edilən məbləğlər

9. Hansı müəssisə növünün fəaliyyəti sahibkarın vəfat etməsi halında başa çatır?

(a) Fərdi sahibkarlıq

(b) Şirkət

(c) Dövlət

(d) Heç biri


MUHASIBAT.AZ

10. Səhmdar vəfat etdikdə:
(a) Şirkət fəaliyyətini davam etdirmək üçün vəfat etmiş səhmdarın rəsmi varislərinin razılığını əldə etməlidir.
(b) Şirkət fəaliyyətini davam etdirmək üçün geridə qalan səhmdarların razılığını əldə etməlidir.
(c) Şirkət öz fəaliyyətini davam etdirəcəkdir, vəfat etmiş səhmdarın varisləri isə öz səhmlərini saxlaya və istədikləri şəxslərə sata bilərlər.
(d) Heç biri

11. Fərdi sahibkarlıq müəssisəsi timsalında, mənfəət:
(a) İşçilər və fərdi sahibkar arasında bölüşdürülür
(b) Yalnız fərdi sahibkara çatır
(c) Ortaqlar arasında bölüşdürülür

## İCMAL








MUHASIBAT.AZ

**5. Maliyyə hesabatlarının hazırlanmasının təbiətini, prinsiplərini və əhatə dairəsini başa düşmək.**

**(Nələri öyrənəcəyik - d)**

## Maliyyə hesabatlarının hazırlanması

Maliyyə hesabatlarının hazırlanmasının əsas məqsədi maliyyə hesabatlarının kənar (yəni müəssisənin özündən kənar) istifadəçilərinin tələblərinə cavab verməkdir. Yəni, səhmdarlar, banklar, kreditorlar kimi kənar istifadəçilərin aşağıdakıları qiymətləndirməsinə kömək etməkdir:

- Müəyyən bir anda müəssisənin maliyyə vəziyyəti (yəni, müəssisə nəyə sahibdir və nə borcludur)
- Onun müəyyən bir dövr ərzində maliyyə vəziyyəti (müəssisə hansı həcmdə mənfəət əldə etmişdir) və
- Bir dövrdən digər dövrə maliyyə vəziyyətindəki dəyişikliklər (müəssisə bu il ərzində keçən ilə nisbətən necə fəaliyyət göstərmişdir)

**Diaqram 3: Maliyyə hesabatlığı ilə həll edilən məsələlər**





MUHASIBAT.AZ

© GTG

Beləliklə, maliyyə hesabatlarının hazırlanması əsasən kənar istifadəçilərin məlumat tələbatlarının qarşılanması ilə əlaqədardır. Bu, müəssisənin idarəedilməsi üçün məlumatların təmin edilməsi məqsədini daşımır. Belə ki, müəssisənin rəhbərliyinə qərarların qəbul edilməsi və müəssisənin effektiv şəkildə idarə olunması üçün daha təfərrüatlı məlumatlar tələb olunur. Rəhbərliyin məlumat tələbatları idarəetmə uçotu vasitəsilə ödənilir.

### İdarəetmə uçotu

İdarəetmə uçotu qərarların qəbul edilməsi üçün müəssisənin rəhbərliyinə müəyyən imkanlar yaradır. Maliyyə hesabatlarının hazırlanması və idarəetmə hesabatlarının hazırlanması məqsədləri üçün eyni məlumatlardan istifadə olunması baxımından, idarəetmə uçotu maliyyə uçotu ilə sıx bağlıdır. Lakin idarəetmə uçotunda rəhbərliyin qərar qəbuletmə tələblərinin qarşılanması üçün, məlumatlar müəyyən qədər fərqli şəkildə hazırlanır.

## Nümunə

Geminay Enterprayzes Şirkətinin rəhbərliyi şirkət işçilərinin əməkhaqqı strukturunda müəyyən dəyişikliklər həyata keçirmək istəyir. O, son on ilin maliyyə hesabatlarından işçilərə əməkhaqqları ödənişləri üzrə məlumatları əldə edə bilər.

Buna baxmayaraq, işçilərə ödənilmiş toplam (ümumi) məbləğ belə bir qərarın qəbul edilməsi üçün kifayət olmaya bilər. Ödəniş strukturu barədə qərar qəbul etmək üçün rəhbərliyə hər bir işçiyə edilmiş ödəniş, xidmət dövrü, işçilərin fəaliyyəti və s. bu kimi digər təfərrüatlar barədə məlumatlar tələb olunur.

Yuxarıdakı halda, maliyyə hesabatlarında istifadə olunan məlumatlar əlavə məlumatlarla tamamlanır və sonra isə qərar qəbuletmə məqsədləri üçün istifadə olunur.

---

### Mühasibat uçotunun əsasları

Sadə dildə desək, əsas, həmişə qəbul olunan fundamental həqiqət mənasını kəsb edir. Bu baxımdan, mühasibat uçotunda əsaslar qəbul olunmuş təlimatlar və ya metodlar deməkdir.

Yuxarıda qeyd olunduğu kimi, müəssisənin maliyyə hesabatları səhmdarlar, banklar, investorlar, kreditorlar kimi müxtəlif tərəfləri maraqlandırır. Əgər maliyyə hesabatlarının hazırlanması prosesində müxtəlif müəssisələr tərəfindən əməl olunan bir ümumi prinsiplər toplusu olmazsa, heç kim maliyyə hesabatlarını təhlil edə, onlar əsasında müəyyən yekun rəylər verə və ya qərarlar qəbul edə bilməz.

Bu çətinliklərin həll olunması üçün maliyyə hesabatlarının hazırlanmasında əməl edilməli olan müəyyən standart əsaslar və ya prinsiplər təqdim olunmuşdur. Mühasibat uçotu terminologiyasında biz, "Əsaslar" əvəzinə, "Mühasibat Uçotunun Beynəlxalq Standartları (MUBS)", "Maliyyə Hesabatının Beynəlxalq Standartları (MHBS)" və "Ümumi Qəbul Olunmuş Mühasibat Uçotu Prinsipləri (ÜQMUP)" anlayışlarından istifadə edirik.

### Qısa Testin Cavabları

1. (b) Bir – fərdi sahibkarlığın müəssisəsinin bir, ortaqlıqların iki və daha çox, məhdud məsuliyyətli cəmiyyətlərin isə qeyri-məhdud sayda sahibləri (və yaxud sahibkarları) ola bilər.
2. (c) – Direktor və idarəedicilər şirkətin sahibkarları deyil, şirkətin işçiləridirlər. Səhmdarlar şirkətin sahibkarlarıdırlar. Buna baxmayaraq, işçilərə / idarəedicilərə şirkətdə səhmlər verilə bilər, lakin bu, bizim tədris vəsaitinin əhatə dairəsindən kənar olan bir mövzudur.
3. (b) Bəli –Fərdi sahibkar məhdud məsuliyyət hüququna sahib deyildir. Bu, o deməkdir ki, müəssisənin iflasa uğradığı və onun xalis aktivlərinin borcların ödənilməsi üçün kifayət etmədiyi təqdirdə, müəssisənin borclarının ödənilməsi üçün sahibkarın şəxsi aktivlərindən istifadə edilə bilər.


MUHASIBAT.AZ

4. (b) Bəli – Ortaqlıqlar məhdud məsuliyyət hüququ daşımırlar. Müəssisənin iflasa uğradığı halda, borcların ödənilməsi üçün ortaqların şəxsi aktivlərinin götürülməsi tələb oluna bilər. Lakin bəzi ölkələrin qanunvericiliyinə əsasən, ortaqlıqlar məhdud məsuliyyət şərti əsasında formalaşdırıla bilərlər.

5. (a) – Məhdud məsuliyyətli cəmiyyətlər öz maliyyə hesabatlarını dərc etdirməlidir.

6. (c) – Şirkətin səhmdarları məhdud məsuliyyətə sahibdirlər. Onlar şirkətə aldıqları səhmlərin nominal dəyəri məbləğində ödəniş etməlidirlər. Borcların ödənilməsi üçün səhmdarların şəxsi aktivlərindən istifadə edilə bilməz.

7. (b) – Səhm kapitalı (Fərdi sahibkarların yatırımları “Sahibkarın kapitalı” adlanır. Ortaqların ortaqlıqlara yatırımları “Ortaqların kapitalı” və səhmdarların şirkətə yatırdıqları məbləğ isə “səhm kapitalı” adlanır.)

8. (d) – Səhm kapitalı səhmdarlar tərəfindən şirkətə yatırılan məbləğdir. Səhmdarlar şirkətə borc öhdəlikləri də verə. Lakin, bu da səhm kapitalına daxil deyildir. Bu, bizim tədris vəsaitinin əhatə dairəsində olmayan bir mövzudur.

9. (a) – Fərdi sahibkarlıq müəssisəsi onun sahibindən ayrılıqda hər hansı hüquqi statusa malik deyildir və beləliklə, müəssisə sahibi vəfat etdikdə müəssisənin fəaliyyəti sona çatır.

10. (c) – Məhdud məsuliyyətli cəmiyyət ayırıca hüquqi statusa malikdir. Səhmdar vəfat etdikdə, vəfat etmiş səhmdarın rəsmi varisi avtomatik olaraq şirkətin sahibinə çevrilir və şirkət fəaliyyət göstərməyə davam edir.

11. (d) – Fərdi sahibkar kommersiya fəaliyyətindən əldə olunmuş bütün mənfəətin sahibinə çevrilir. Ortaqlıqlarda mənfəət ortaqların öz aralarında razılaşdıqları mənfəətin bölüşdürülməsi nisbəti əsasında pul çıxarmaları (ortaqlar tərəfindən dövriyyədən çıxarılan pul vəsaitləri), məhdud məsuliyyətli cəmiyyətlərdə isə mənfəət səhmdarlara dividentlər şəklində ödənilir.

## Sınaq sualları

1. Maliyyə uçotu və idarəetmə uçotu arasında olan əsas fərqləri müəyyənləşdirin.

2. Mühasibat uçotunun əsasları ümumi olaraq necə tanınır?

(a) Standartlar

(b) Metodlar

(c) Qaydalar

(d) Təlimatlar

3. Aşağıdakılardan hansı fərdi sahibkarlığın üstün cəhəti deyildir?

(a) Bir dəfə vergi tutulması

(b) Məhdud məsuliyyət

(c) Mənfəətin bölüşdürülməməsi

(d) Maliyyə hesabatlarının dərc edilməsinin tələb olunmaması

4. Aşağıdakı bəndlərdən hansı fərdi sabibkarlar və məhdud məsuliyyətli cəmiyyətlər arasında olan fərqi əks etdirir?

(1) Fərdi sahibkarlar maliyyə hesabatlarını dərc etdirməli deyil

(2) Fərdi sahibkarlar qeyri-məhdud məsuliyyətə, səhmdarlar isə məhdud məsuliyyətə sahibdirlər

(3) Yalnız məhdud məsuliyyətli cəmiyyətlər səhm kapitalına sahib olur



MUHASIBAT.AZ

(a) Yalnız 1 və 2
(b) Yalnız 2 və 3
(c) Yalnız 1 və 3
(d) 1, 2 və 3

5. Ortaqlıqlar barədə aşağıdakı ifadələrdən hansıları doğrudur?
(1) Borcların ödənilməməsi halında ortaqların şəxsi aktivlərindən istifadə oluna bilər
(2) Mənfəət ortaqlar arasında bərabər şəkildə bölüşdürülür
(3) İki və ya daha çox ortaq olmalıdır

(a) Yalnız 1 və 2
(b) Yalnız 2 və 3
(c) Yalnız 1 və 3
(d) 1, 2 və 3

6. Aşağıdakılardan hansı maliyyə hesabatlarının hazırlanması üçün səbəb deyildir?
(a) Digər tərəflərin müəssisəyə olan borclarını qiymətləndirmək üçün
(b) Müəssisənin digərlərinə olan borclarının qiymətləndirilməsi üçün
(c) Səhm kapitalının artırılması üçün
(d) Mənfəətin hesablanması və onun komponentlərinin müəyyənləşdirilməsi üçün

7. Aşağıdakılardan hansı hesabatların hazırlanması mərhələləridir?
(a) Müəyyənləşdirmək, hesabat vermək, qeyd etmək, təhlil etmək
(b) Müəyyənləşdirmək, qeyd etmək, təhlil etmək, hesabat vermək
(c) Müəyyənləşdirmək, hesablamaq, təhlil etmək
(d) Müəyyənləşdirmək, təhlil etmək, hesablamaq

8. Ortaqlıqlar baxımından mənfəət:
(a) İşçilər və ortaqlar tərəfindən bölüşdürülür
(b) Fərdi sahibkarın payına düşür
(c) Ortaqlar arasında bölüşdürülür
(d) Rəhbərlik tərəfindən divident şəklində bəyan edilir

9. Şirkətin mənfəəti:
(a) İşçilər və səhmdarlar arasında bölüşdürülür
(b) Fərdi sahibkarın payına düşür
(c) Ortaqlar arasında bölüşdürülür
(d) Divident şəklində səhmdarlara təqdim edilir


MUHASIBAT.AZ

## Sınaq suallarının cavabları

1. Maliyyə uçotu kənar istifadəçilərin (səhmdarlar kimi) məlumat tələblərinin qarşılanması məqsədini daşıyır. İdarəetmə uçotu isə rəhbərliyin qərar qəbuletmə tələblərinin qarşılanması istiqamətində fəaliyyət göstərir.

   Maliyyə hesabatları müəyyən qaydalar və normativ təlimatlara uyğun olaraq hazırlanmalıdır (məsələn, MHBS-lər və ya digər milli ÜQMUP), lakin idarəetmə hesabatları kommersiya müəssisənin müəyyən xüsusi tələblərinə əsasən tərtib edilə bilər.
2. (a) – Mühasibat uçotunun əsasları dedikdə, mühasibat uçotu standartları, maliyyə hesabatı standartları və ya ümumi qəbul olunmuş mühasibat uçotu prinsipləri başa düşülür.
3. (b) – Fərdi sahibkarlıqlar qeyri-məhdud məsuliyyətə malikdir. Məhdud məsuliyyətli cəmiyyətlər isə məhdud məsuliyyət hüququna sahib olur.
4. (d) – Fərdi sahibkarlar maliyyə hesabatlarını dərc etdirməli deyillər. Həmçinin, onlar qeyri-məhdud məsuliyyətə malikdirlər. Şirkətlər isə maliyyə hesabatlarını dərc etdirməlidir və məhdud məsuliyyət daşıyır. Səhmdarlar tərəfindən investisiya edilən kapital “səhm kapitalı” adlandırılır.
5. (c) – Ortaqlıqlar qeyri-məhdud məsuliyyətə sahibdirlər və iki və ya daha çox ortaq tərəfindən idarə olunurlar. Lakin ortaqlıqlar mənfəətin bölüşdürülməsi üzrə istənilən nisbəti müəyyənləşdirə bilərlər və mənfəətin bölüşdürülməsi üzrə nisbət mütləq bərabər olmalı deyil.
6. (c) – Maliyyə hesabatlarında müəssisənin aktivləri, öhdəlikləri və mənfəəti qiymətləndirilə bilər. Lakin maliyyə hesabatlarının hazırlanması müəssisənin səhm kapitalını artırmır.
7. (b) – Düzgün mühasibat uçotu prosedurları – müəyyənləşdirmək, qeyd etmək, təhlil etmək və hesabat verməkdir.
8. (c) – Ortaqlıqlarda mənfəət qarşılıqlı şəkildə müəyyənləşdirilmiş nisbətdə bütün ortaqlar arasında bölüşdürülür.
9. (d) – Rəhbərlik dividentləri təklif edir və bu qərar sonradan səhmdarlar tərəfindən təsdiq edilir.


MUHASIBAT.AZ